

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 iyul 2021-ci il №56 (2564) https://mod.gov.az Qiymәti 30 qәpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İnsanları humanizmə, mərhəmətə və vəhdətə dəvət edən Qurban bayramında müsəlmanlar Haqq yolunda, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Ulu Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca tutulmuşdur. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş etmişdir.

Əziz bacı və qardaşlarım!

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik. Xalqımız şəhidlərimizin şərəfli adını heç zaman unutmayacaq, onların ailələri və qazilərimiz dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunacaqdır. Əminəm ki, ölkəmizin rifahı, firavanlığı üçün edilən dualar, torpaqlarımızın işğaldan azad olunmasının doğurduğu Qələbə ovqatı və Allaha şükranlıq hissi ilə kəsilən qurbanlar cəmiyyətimizdə milli-mənəvi həmrəylik ruhunu daha da gücləndirəcək, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Dua və niyyətlərinizin Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hamınıza xoşbəxtlik, ailələrinizə əmin-amanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 iyul 2021-ci il.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan Ermənistan qoşunlarının bizim ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi və Azərbaycan müharibəyə son qoydu



*İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel birgə işçi nahar ediblər.*

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidentini qarşılayıb.

Görüşdə Azərbaycan-Avropa İttifaqı siyasi əlaqələrindən məmnunluq ifadə olunub, ticarət əlaqələri, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizi və nəqliyyat sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Cənubi Qafqazda əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Şarl Mişelə azad edilmiş torpaqlarda gedən işlərlə bağlı məlumat verib, postkonflikt vəziyyət barədə danışıb.

Görüşdə, eyni zamanda, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Qoşulmama Hərəkatı ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniştərkibli görüşdə bu mövzularla bağlı müzakirələr davam etdirilib.

Geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı olub. Onlar əvvəlcə mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı bəyanatında bildirib ki, Avropa İttifaqı Azərbaycan üçün yaxın tərəfdaşdır. "Biz uzun illərdir müxtəlif sahələrdə işləyirik. Gündəlik çox genişdir və bizim güclü siyasi təmaslarımız, əlbəttə ki, əməkdaşlığımızın şaxələndirilməsi üçün çox yaxşı təməl yaradır".

Avropa İttifaqı ilə Azərbaycanın ticarət dövriyyəsindən söz açan dövlət başçısı qeyd edib ki, gündəlikdə duran məsələnin mühüm hissəsi enerji təhlükəsizliyi və xüsusilə Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması ilə bağlıdır.

Bağlılıqla əlaqədar məsələləri müzakirə etdiklərini vurğulayan Prezident İlham Əliyev bildirib ki, bu məsələ hər zaman, xüsusilə nəhəng nəqliyyat infrastruktur layihələrinin tamamlanmasından sonra Avropa İttifaqı ilə Azərbaycan arasında gündəlikdə olub. "İkinci Qarabağ müharibəsindən sonra ötən il 10 noyabr tarixli üçtərəfli razılaşmada əks olunduğu kimi, regionda bütün kommunikasiyaların açılması üçün yeni imkanlar var. Beləliklə, bu məsələ, eləcə də regionda münaqişədən sonrakı inkişafla bağlı başqa məsələlər bu gün geniş şəkildə müzakirə olundu. Çünki bu, yeni vəziyyət yaratdı, yeni reallıqlar yaratdı".

Sonra dövlət başçısı qeyd edib ki, Azərbaycan əraziləri-nin uzun müddət Ermənistan tərəfindən işğalına son qoydu. "Azərbaycan Ermənistan qoşunlarının bizim ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi və Azərbaycan müharibəyə son qoydu. Ona görə də indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır. Biz buna hazırıq. Bu gün biz cənab Prezidentlə planlarımızı, təşəbbüslərimizi və yeni yaranmış vəziyyətə yanaşmalarımızı geniş şəkildə müzakirə etdik. Düşünürəm ki, nisbətən qısa zamanda xoş məram və çox praqmatik yanaşma nümayiş etdirməklə, biz hələ də masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə və bölgədə geniş regional əməkdaşlığın təməlini qoya bilərik. Avropa İttifaqı bu baxımdan çox mühüm rol oynayır və əminəm ki, oynayacaq.

Cənab Prezidentin Cənubi Qafqazın 3 ölkəsinə səfəri Avropanın iştirakını, Avropa gündəliyini nümayiş etdirir və bu, bizim gündəliyimizə tam uyğundur. Bu məsələdə də bizim fikirlərimiz üst-üstə düşür və əlbəttə ki, bağlılıq və işğaldan azad edilmiş ərazilərin yenidən qurulması məsələləri baxımından münaqişədən sonrakı inkişaf hər zaman aramızdakı gündəlikdə olacaq".

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bəyanatında qeyd edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin mahiyyəti barədə intensiv və dərin fikir mübadiləsi aparılıb. "Çünki biz arzu edirik ki, əlaqələrimizə əlavə, növbəti təkan verək. Hətta, Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa strateji xarakter vermək istəyirik".

Şarl Mişel onu da bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, əsasən, maliyyə dəstəyinə əsaslanan işbirliyi deyil. Əksinə, bu, birgə iş aparmaq istəyinə, innovasiyalara, texnoloji mübadilələrə və iqtisadi əməkdaşlığa əsaslanan tərəfdaşlıqdır.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel jurnalistlərin suallarını cavablandırıblar.

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab təqdim edib.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan Respublikası Müdafiə nazirinin Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzi olan Qurban bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban bayramı insanlar arasında bərabərliyin, birliyin daha da artırılmasının və eyni zamanda, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının parlaq təntənəsinə çevrilib.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dönəmlərində dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərlərimizi yüksək tutaraq adət və ənənələrimizin qorunub saxlanmasında misilsiz xidmətlər göstərmişdir.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin bu gün davam etdirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan dövlətinin iqtisadi dayaqları möhkəmlənib. Ölkəmiz demokratik dövlət quruculuğu və dinamik inkişaf prosesində böyük nailiyyətlər qazanaraq, dünyada islami və bəşəri, milli-mənəvi dəyərlərə hörmətlə yanaşan, humanist, tolerant dövlət kimi tanınır.

Cənab Ali Baş Komandan tərəfindən atılan inamlı addımlar sayəsində Azərbaycan Respublikasının müdafiəsi və təhlükəsizliyinin təminatçısı olan ordumuz gündən-günə qüdrətlənir, dünyanın ən güclü orduları sırasında yer alır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz Vətən müharibəsində zəfər qazandı. Ali Baş Komandanın qətiyyəti, müdrik və uzaqgörən siyasəti, eyni zamanda, ordumuzun vətənpərvər, peşəkar zabit və əsgərlərinin şücaəti, qəhrəmanlığı sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu gün üçrəngli bayrağımız işğaldan azad edilən torpaqlarımızda əzəmətlə, qürurla dalğalanır.

Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları, şəhidlərimizin valideynlərini və ailə üzvlərini, şəxsi heyəti bayram münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və Vətənə, xalqa, orduya şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Andа və Nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığınızı daha da artıraraq Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəksiniz.

Sizi Qurban bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə nailiyyətlər arzulayıram. Qurban bayramı həyatınıza əmin-amanlıq, firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun.

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir HƏSƏNOV**

# Müdafiə naziri xidməti müşavirə keçirib

*İyulun 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib. Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunublar.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səsləndirdiyi "Artıq müharibə dövrü arxada qalıb. Amma buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq" fikirlərini müşavirə iştirakçılarına çatdıran Müdafiə naziri şəxsi heyətin mənəvi-psixoloji və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinin vacibliyini qeyd edib. Nazir döyüş növbətçiliyinə cəlb edilən hərbi qulluqçuların sayıqlığının artırılması, həmçinin bölmələrin maddi-texniki təminat imkanlarının daha da genişləndirilməsini tapşırıb.

Azad edilmiş ərazilərdə, o cümlədən Ermənistan-Azərbaycan dövlət sərhədindəki son vəziyyəti təhlil edən Müdafiə naziri gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib. Nazir Ermənistan silahlı qüvvələrinin ehtimal olunan təxribatlarının qarşısının alınması ilə əlaqədar komandir-rəis heyətinə göstərişlər verib.

Mühəndis-istehkam işləri və qoşunların mühəndis təminatı tədbirləri ilə maraqlanan general-polkovnik Zakir Həsənov xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Əlahiddə Ümumqoşun Orduda qazilərlə əsgərlərin görüşü təşkil edilib

Əlahiddə Ümumqoşun Orduda əsgərlərin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində mütəmadi olaraq tədbirlər görülür.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu dəfə əsgərlərlə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşən bir qrup qazimizin görüşü təşkil edilib. Tədbirdə həmçinin Şərur rayonunun mədəniyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər.

Tədbirdə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Fariz Sərxanov çıxışında ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşən igid Vətən oğulları ilə görüşün və konsert proqramının təşkil edilməsinin əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasında mühür rol oynadığını bildirib.

Fariz Sərxanov ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş qəhrəmanlarımızın ailələrinin və bu döyüşlərdə sağlamlıqlarını itirmiş qazilərimizin hərtərəfli sosial təminatla əhatə olunduğunu qeyd edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 2 iyul tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzi" yaradılıb. Bu da şəhid ailələrinə və qazilərimizə növbəti qayğının ifadəsidir.

Kəngərli rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri, ehtiyatda olan zabit Rəşid Nağıyev və Vətən Müharibəsində iştirak etmiş qazilərimiz Azərbaycan Ordusunun nümayiş etdirdiyi mərdlik və qətiyyət barədə danışıb, rəşadətli ordumuzun torpaqlarımızın azadlığı uğrunda göstərdiyi şücaətin əsl qəhrəmanlıq nümunəsi olduğunu diqqətə çatdırıblar.

Tədbirin bədii hissəsində Şərur rayon Mədəniyyət şöbəsinin "Arpaçay" instrumental ansamblı konsert proqramı ilə çıxış edib.

"Şərur" Xalq Yallı ansamblının çıxışları əsgər və zabitlərdə xoş ovqat yaradıb.

Əsgərlər də vətənpərvərlik ruhunda mahnılar səsləndirib, qonaqlarla birlikdə rəqs ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**17 İYUL 2021 09:31**

Ermənistan silahlı qüvvələrinin bölmələri iyulun 16-sı saat 20:40-dan 22:30-dək Basarkeçər rayonunun Yuxarı Şorca kəndi ərazisində yerləşən mövqelərindən fasilələrlə və iyulun 17-si saat 01.00 radələrində Berd rayonunun Mosesqex kəndi istiqamətindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu kəndi və Tovuz rayonunun Ağdam kəndi istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

İyulun 17-si saat 08:30-da isə Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən kəndi yaxınlığında yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.

Qarşı tərəfin susdurulması məqsədilə cavab atəşi açılıb.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

**19 İYUL 2021 21:25**

İyulun 19-u saat 17:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutub.

Cavab atəşi ilə düşmən susdurulub. Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**19 İYUL 2021 23:46**

İyulun 19-u saat 20:50-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri Ermənistan ərazisindən müxtəlif çaplı silahlardan yenidən atəşə tutulub.

Qarşı tərəfin susdurulması məqsədilə cavab atəşi açılıb.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

# “Zəfər bayrağımız etibarlı əllərdədir!” adlı tədbir keçirilib

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ötən il sentyabrın 27-də respublikamızın ərazi bütövlüyünün bərpası və işğal edilmiş tarixi torpaqlarımızın azad olunması uğrunda "Dəmir yumruq" əməliyyatı ilə başladığımız Vətən müharibəsində təcavüzkar Ermənistan üzərində qazanılan möhtəşəm qələbə hərb tariximizə qızıl hərflərlə yazılıb.*



İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin xalqımızın birliyi, həmrəyliyi, respublikamızın iqtisadi gücü, ordumuzun rəşadəti və dövlətimizin başçısının polad iradəsi, qətiyyəti sayəsində əldə etdiyimiz bu qələbə heç vaxt unudulmayacaq, şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan şəhidlərimizin fədakarlığı, qazilərimizin qəhrəmanlığı, döyüşən əsgər və zabitlərimizin isə göstərdikləri şəxsi igidlik və şücaət nümunələri heç vaxt yaddan çıxmayacaqdır.

"N" hərbi hissəsində "Zəfər bayrağımız etibarlı əllərdədir!" devizi altında keçirilən ədəbi-musiqili tədbirdə də bu barədə ətraflı söhbət açılıb, tarixi zəfərimizi tərənnüm edən vətənpərvərlik mahnıları, barıt qoxulu şeirlər səsləndirilib, cəngavərlik rəqsləri ifa olunub, Vətən müharibəsinin iştirakçıları olan hərbi qulluqçular xatirələrini bölüşüblər.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani işğal olunmuş torpaqlarımızın son 200 il ərzində 44 günlük Vətən müharibəmizdə ilk dəfə olaraq güc yolu ilə azad edilməsini tarixi bir hadisə kimi dəyərləndirərək deyib: "Azərbaycan olduqca zəngin, eyni zamanda geostrateji maraqların mərkəzində yerləşən bir ölkə olduğundan zaman-zaman bu diyara qoşunlar yeridilib və yadelli qəsbkarlar bu torpaq uğrunda qanlar tökərək soydaşlarımızı qılıncdan keçirib, vardövlətimizi yağmalayıb, şəhər və kəndlərimizi yerlə-yeksan ediblər. Lakin ulu babalarımız qanları, canları bahasına Vətən torpaqlarını mərdliklə qoruyaraq döyüşkən, mübariz, yenilməz bir xalq olduğumuzu döyüş meydanında təsdiq ediblər. Təsadüfi deyildir ki, hətta məşhur rus tarixçisi P.Zubov vaxtilə demişdir: "Azərbaycan alaylarını döyüş meydanında görmək lazımdır. Onlar qəzəblənmiş Allahın birdən-birə düşmən üzərinə yağdırdığı oda-atəşə, ildırıma, şimşəyə bənzəyirlər".

Nəzərə çatdırılıb ki, Azərbaycan oğulları Vətən müharibəsi cəbhələrində həqiqətən atəşə dönərək düşmən üzərinə od ələdi, onlara sarsıdıcı, dağıdıcı zərbələr vurdu. Xüsusi təyinatlılarımızın, qəhrəman döyüşçülərimizin gücünə tab gətirməyən düşmən silah-sursat və hərbi texnikalarını, illərlə möhkəmləndirdiyi mövqelərini, hətta yaralı, həlak olan döyüşçülərini geridə buraxaraq qaçmağa məcbur edildi. Cəsur döyüşçülərimizin Şuşanın sıldırım qayalıqlarından qalxaraq düşmənə verdikləri tarixi dərs çətin ki, onların yadından çıxsın.

Tədbirdə qətiyyətlə vurğulanıb ki, Şuşaya sancılan Zəfər bayrağımız heç vaxt enməyəcək. Qoy hər kəs bunu birdəfəlik bilsin ki, Azadlıq meydanına gətirilərək Zəfər paradında nümayiş etdirilən Zəfər bayrağımız bu gün etibarlı əllərdədir və bu bayraq altında Azərbaycan əsgəri istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə hər an hazırdır.

26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşünün iştirakçısı zabit Elsevər Əhmədov Müzəffər Ali Baş Komandanın həmin gün böyük iftixar hissi ilə dediyi fikirləri bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir".

Son vaxtlar Ermənistan silahlı qüvvələri bölmələrinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu, Şuşa şəhəri, Kəlbəcər rayonu və digər istiqamətlərdə yerləşən mövqelərimizi müxtəlif çaplı silahlardan atəşə tutması şəxsi heyəti daha da hiddətləndirib. Düşmənə vaxtında layiqli cavab verilsə də, onlar düşmənə bir daha xəbərdarlıq ediblər ki, əgər təxribat əməllərindən əl çəkməsələr Vətən müharibəsində aldıqları utancverici dərsdən də tutarlı zərbələrlə üzləşəcəklər.

Vətən müharibəsi iştirakçıları İlkin Qəribov və Emin Məmmədov döyüşçü yoldaşları adından çıxış edərək dəmir yumruğun yerində, Zəfər bayrağımızın isə etibarlı əllərdə olduğunu bildirib və hər bir Vətən əsgərinin düşmən təxribatlarının qarşısını almağa hazır və qadir olduqlarını bəyan ediblər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi "Zəfər bayrağımız etibarlı əllərdədir!" adlı ədəbi-musiqili kompozisiya tədbir iştirakçılarının döyüş ruhunu və vətənpərvərlik hissini daha da yüksəldib.

# Şəhidlər ölməz - Vətən bölünməz

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi xalqımız tərəfindən daim əziz tutulur, hörmətlə yad edilir. Mütəmadi olaraq hərbi hissə və birləşmələrdə, o cümlədən hərbi təhsil ocaqlarında anım mərasimləri keçirilir.

Bu günlərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Vətən müharibəsində şəhid olmuş mayor Fərid Ələkbərovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi. "Şəhidlər ölməz - Vətən bölünməz" şüarı altında keçirilən mərasim açıq elan edildikdən sonra ümummilli liderimiz Heydər Əliyevin və yurdumuzun azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdilər.



Mərasim iştirakçılarına Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsindən bəhs edən vidoçarx təqdim olundu.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabiti polkovnik Emin Səfərov çıxışında Vətən müharibəsindən ətraflı söz açaraq bildirdi ki, torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən Vətən müharibəsində ordumuzun zabit və əsgərləri böyük igidlik və qəhrəmanlıq göstərdilər. "Bu qəhrəmanlıq sayəsində 28 illik erməni işğalına son qoyuldu. Düşmən ordusu darmadağın edildi. Torpaqlarımız erməni qəsbindən azad olundu. Xalqımız Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha gördü. Vətən müharibəsində iştirak edən zabit və əsgərlərimiz "Dəmir yumruq" əməliyyatında böyük uğurlar qazandılar, adlarını qəhrəmanlıq tariximizə böyük hərflərlə yazdılar. İnanıram ki, gələcək nəsillər zaman-zaman onların igidliyi və qəhrəmanlığı ilə fəxr edəcək, qürur duyacaq. 2020-ci il sentyabrın 27-də erməni təxribatları nəticəsində başlanan Vətən müharibəsində təhsil ocağının şəxsi heyəti də yaxından iştirak etdi. Erməni qəsbkarlarına sarsıdıcı zərbələr endirdi. Təəssüflər ki, bu döyüşlərdə itkilərimiz də oldu. Vətən uğrunda canından keçən zabitlərimizdən biri də mayor Fərid Ələkbərovdur. Zabit Fərid Ələkbərov çox vətənpərvər, bacarıqlı və igid zabit idi. Torpaqlarımızın azadlığı uğrunda müharibə başlayan ilk günlərdən döyüşlərə atılan mayor F.Ələkbərov mədəniyyət beşiyimiz olan Şuşaya qədər şərəfli bir döyüş yolu keçdi. Dəqiq atəş zərbələri ilə ermənilərə sarsıdıcı zərbə vurdu. Zabitin son döyüşü də Şuşada oldu. Noyabrın 8-də canından da çox sevdiyi Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşdə ağır yaralandı. Həkimlər nə qədər çalışsalar da, onun həyatını xilas edə bilmədilər. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə mayor Fərid Ələkbərov "İgidliyə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb. Biz şəhidlərimizin xatirəsini həmişə əziz tuturuq. Fəridin ad günüdür, əgər yaşasaydı, bu gün 41 yaşı tamam olacaqdı. Vətən üçün Fərid kimi cəsur oğullar böyüdən valideynlərin qarşısında baş əyirik. Onun kimi igidlərin, cəsurların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".



Vətən müharibəsində qəhrəmancasına şəhid olan mayor Fərid Ələkbərovun həyat, xidmət və döyüş yolundan bəhs edən videoçarx nümayiş etdirildi.

Döyüş və xidmət yoldaşları polkovnik-leytenant Aydın Osmanov, baş leytenant Mobil Əhmədzadə, yaxın dostu Mikayıl Məmmədov, Yasamal rayon İcra Hakimiyyətinin nümayəndəsi Samir İsmiyev zabit Fərid Ələkbərov haqqında kövrək xatirələrindən söz açdılar.

Zabit Fərid Ələkbərovun ekiz qardaşı Rüfət Ələkbərov qardaşının uşaqlığı, gəncliyi haqqında mərasim iştirakçılarına geniş məlumat verdi.

Mayor Fərid Ələkbərovun anası Şükufə Həsənova çıxışında şəhidlərin xatirəsini əziz tutduğuna görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi təhsil Azərbaycan Ordusunun inkişafının məhək daşıdır



Müstəqil dövlətin hərbi təhsil sistemi güclü və müasir tələblərə cavab verə biləcək ordunun yaradılmasında müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, cəmiyyətin iqtisadi münasibətlərinin xarakterindən, elmi-texniki tərəqqidən, hərbi sahənin inkişaf tendensiyasından asılı olaraq dəyişir. Bu gün hərbi təhsil sistemi ordunun inkişafını müəyyən edən strateji vəzifə kimi mühüm rol oynayır.

Hərbi təhsil sisteminin idarə olunması, hərbi təhsil sistemi iştirakçılarının hüquq və vəzifələri, hərbi təhsil sahəsində əsas prinsip və normalar xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələrinə və "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun tələblərinə əsasən müəyyənləşdirilir. Həmin tələblərə əsasən, hərbi təhsilin milli zəminə və müasir hərbi dəyərlərə, tədris prosesinə əsaslanması, elmi-hərbi-dünyəvi xarakter daşıması, fasiləsizlik, çeviklik prinsiplərindən yararlanması günün tələbi kimi çıxış edir.

Sürətli tərəqqi yolunda olan respublikamızda hərbi təhsil sisteminin Azərbaycan Ordusunun inkişafı çağırışlarına cavab verməsi yönündə yeni hədəflərin müəyyənləşdirilməsi, təhsilin və tədrisin



keyfiyyət göstəricilərinin müasir standartlara uyğunlaşdırılması prioritet vəzifə kimi qarşıda dayanır. Bu baxımdan Prezident, Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiqlənməsi barədə 2013-cü ilin 24 oktyabr tarixli Sərəncamı böyük əhəmiyyətə malikdir. Sərəncamda dövlətimizin inkişaf konsepsiyasına uyğun olaraq, strategiyamızda davamlı, dayanıqlı və rəqabət qabiliyyətli inkişafı təmin edən, insan kapitalının inkişafına önəm verən, insan resurslarının hazırlanmasını



və idarəedilməsini gerçəkləşdirən müasir təhsil, o cümlədən hərbi təhsil sisteminin yaradılması ön plana çəkilir. Eyni zamanda, bu konseptual sənəddə ölkəmizdə beynəlxalq standartlara cavab verən ümumi təhsil sisteminin inkişaf istiqamətləri, başlıca hədəfləri dəqiq müəyyənləşdirilib, bu sahədə çalışanların qarşısında yeni, məsul vəzifələr qoyulub.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrin inkişafı çərçivəsində Hərbi Hava Qüvvələrinin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və təlim-tədris sisteminin təkmilləşdirilməsi məqsədilə yaradılan Təlim Məşq Poliqonunda olduq.

Təlim Məşq Poliqonunun tədris-maddi bazasının təyinatı və məşğələlərin təşkili prosesi ilə yaxından maraqlandıq. Hərbi hissənin tədris işinə cavabdeh olan mayor Elnur Xudeynatov bildirdi ki, yüksək texnologiyalar əsasında yaradılan mərkəzdə hava hücumundan müdafiə bölmələrinin döyüş heyətlərinin hazırlığı, real aviasiya və hədəflərə qarşı praktiki məşqlər, eləcə də müxtəlif tapşırıqlar icra olunur. Mövcud olan meydançalarda hərbi texnikanın istifadəsi ilə hərbi qulluqçular təlim məşq prosesinə cəlb olunurlar".

Söhbət əsnasında zabit Təlim Məşq Poliqonunun yaradılma məqsədindən də söz açdı: "Təlim Məşq Poliqonunun əsas məqsədi Azərbaycan xalqı və dövləti qarşısında öz məsuliyyətini dərk edən, Vətənə və xalqına sadiq olan, xalqının milli-mənəvi dəyərlərinə və demokratiya prinsiplərinə, insan hüquqlarına və azərbaycançılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı düşünən hərbi qulluqçuları yetişdirmək, eyni zamanda, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünya görüşünə malik olan, təşəbbüsləri, yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü, silahı, hərbi texnikanı mükəmməl bilən mütəxəssis kadrlar hazırlamaqdır. Sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini, ixtisasın daimi artırılmasını təmin edən Təlim Məşq Poliqonu Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş hazırlığının, ümumilikdə Vətənin müdafiə qabiliyyətinin artırılması sahəsində yorulmadan çalışan hərbi qulluqçuların formalaşmasında mühüm rol oynayır".

"Təlim-tədris prosesində qarşımızda dayanan birinci məsələ hərbi qulluqçuların hazırlanması prosesidirsə, ikinci məsələ hava hücumunu və hava hücumundan müdafiəni təmin edən heyətlərin qiymətləndirilməsidir", - deyə zabit sözünə davam etdi. - Bunun üçün Təlim Məşq Poliqonunda tədris şöbəsi və bölmələr fəaliyyət göstərir. Təcrübəli müəllimlər tədris prosesinə cəlb olunub ki, onlar da müxtəlif ixtisaslar üzrə təhsil alan hərbi qulluqçuların formalaşmasında mühüm rol oynayırlar. Hərbi qulluqçular həftənin beş günü tədris prosesinə cəlb olunurlar.



Tədris prosesinin sonunda onlardan həm nəzəri, həm də praktiki imtahanlar götürülür. Nəticədə bu prosesə cəlb olunan hərbi qulluqçuların qiymətləndirilməsinə imkan yaranır, eyni zamanda, onlar qazandıqları təcrübə əsasında keçmişdəki nöqsanları aradan qaldırırlar.

Zabit onu da bildirdi ki, qiymətləndirmə zamanı praktiki uçuşlardan da istifadə edilir. "Prosesə cəlb olunan heyəti qiymətləndirərkən praktiki uçuşlara xüsusi diqqət yetirilir. Heyət üzvləri sonda həm təlim təyyarələrində, həm də döyüş təyyarələrində, bəzən də helikopterlərdə uçuşlar həyata keçirirlər".

Zabit tədris prosesinin səmərəliliyini artırmaq məqsədilə tətbiq olunan müasir texnologiyadan da söz açdı. "Bu gün praktikada elektron təlim vasitələrinin tətbiqi müasir təhsil sisteminin inkşaf etdirilməsində aparıcı amillərdən biridir. Bu səbəbdən Təlim Məşq Poliqonunda qabaqcıl təlim-texnoloji komplekslərdən, xüsusi olaraq informasiya və kommunikasiya texnologiyalarının (İKT) imkanlarından istifadə olunması, təhsilin və tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm amildir".



Söhbətimiz başa çatdıqdan sonra zabitlə birgə Təlim Məşq Poliqonunun siniflərində olduq. Kapitan Teymur Mirzəyev bildirdi ki, Təlim Məşq Poliqonunda keçirilən dərslər imkan verir ki, tədris prosesinə cəlb olunan heyət gündən-günə yeniləşən hərbi rabitə vasitələrinin işini mənimsəyə bilsin. "Rabitə vasitələri yeniləşdikcə mütəxəssislər də cavanlaşır, yeni, gənc nəsil bu yeniləşən hərbi rabitə vasitələrini təcrübədə öyrənir. Bu gün biz fəxrlə deyə bilərik ki, Azərbaycan Ordusunda istifadə olunan rabitə vasitələri nəinki düşmənlə müqayisədə, hətta bütün MDB məkanında müasirliyi ilə seçilir. Bu da onu göstərir ki, ordu quruculuğuna göstərilən diqqət çox əhatəlidir. Poliqonun kifayət qədər geniş biliyə və təcrübəyə malik olan əməkdaşları hərbi hissələrdə döyüş hazırlığının həmişə yüksək səviyyədə saxlanılmasında, müəyyən mənada, yardımçıdır..."

Müəllimlər mayor Xəyal Abdurəhmanov, mayor Nicat Manafov, kapitan Elçin Qasımov, kapitan Elnur Əsədov da qeyd etdilər ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev daima təhsil və tədris məsələlərini öz nəzarəti altında saxlayır. Onun nəticəsidir ki, Azərbaycan Ordusunun inkişafının müasir mərhələsində hərbi təhsil və tədris sahəsində aparılan işlər, o cümlədən Təlim Məşq Poliqonunda aparılan tədris prosesi qoşunlarda yüksək döyüş hazırlığının təmin edilməsinə, zabit, gizir heyətinin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının Vətənə, Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidentinə həddsiz sədaqət və daimi peşə hazırlığının inkişaf etdirilməsinə və tapşırılmış işə yüksək məsuliyyət hissinin tərbiyə edilməsinə yönəlib.

**Mayor**
**Məhəmməd ƏLİYEV**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Azərbaycan Milli Mətbuatı - 146*

# Milli Mətbuatın yaranması - Milli istiqlala doğru atılan ilk addım

**Ümummilli lider Heydər Əliyev:**

*Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir.*

Sivil insan cəmiyyəti formalaşandan azad fikir və sərbəst düşüncə ifadə etməyə, obyektiv informasiya almağa ciddi ehtiyac duyulub. Mətbuat yarandığı vaxtdan hər bir fərdin ayrı-ayrılıqda özünüifadə etmək istəyi əsrlər boyu insanlığın demokratik ideallar uğrunda mübarizəsinin də əsas mahiyyətini təşkil edib.

Dövlətlər arasında işgüzar, iqtisadi münasibətlər qurularkən öncə hansı dəyərlərə sahib olduğuna nəzər salınır - araşdırılır. Maddi dəyərlərindən əvvəl ölkənin milli-mənəvi dəyərləri qiymətləndirilir. Çünki maddi dəyərlər yalnız tutarlı, zəngin ənənələrə malik milli-mənəvi dəyərlər mövcud olduğu halda mümkündür.

Əsrlər boyunca Azərbaycanda da qeyri-maddi, mənəvi dəyərlərin yaradılması uğrunda mübarizələr aparılıb. Bu gün müasir cəmiyyəti mətbuatsız, mədəniyyətsiz, təhsilsiz, iqtisadi və siyasi nailiyyətlər olmadan təsəvvür etmək mümkün deyil.

Mətbuatımızın keçdiyi tarixi yol qürur doğurur. Bu il Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 146 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli ruhunun formalaşmasında yeni mərhələ oldu. Əsasən maarifçilik missiyasını yerinə yetirən "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Milli oyanışın yeni mərhələsinin təmsilçisi kimi "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi.

Mütərəqqi ideyaların carçısı olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin ən böyük uğurları ilk növbədə onun mətbu dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqisinə çalışan "Əkinçi" qadın azadlığı və qadınların təhsili ideyasını təbliğ edirdi. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunurdu. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. "Əkinçi" Azərbaycandan kənarda da - Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı.

*22 iyul - Azərbaycanda "Milli Mətbuat və Jurnalistika günü" kimi qeyd edilir*





Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafının təməli rolunu oynadı.

1877-ci ilin 29 sentyabr tarixinə qədər "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edildi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və qəzetin nəşrini dayandırdı. Qəzetin cəmi 56 nömrəsi işıq üzü gördü.

"Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq bir müddət Azərbaycan dilində mətbu orqan çap olunmadı...

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti oldu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olub. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bildi.

1906-cı il aprelin 7-də Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" nəşrə başladı. 1918-ci ildək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə Bakıda çap olundu.

Bu dövr Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan "Ziya", "Kəşkül", "Kaspi", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olub.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Bu dövrdə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir.

XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də mətbuatımızın inkişafında xüsusi yeri vardır. Məhz bu illərdə qəzet və jurnalların şəbəkəsi genişləndi, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşdi. Mətbuat daha çox partiyalı, sinifi olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətdilər və bu yolda bəzən təqiblərə də məruz qaldılar.

Azərbaycan ötən əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. 146 il ərzində müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayıb. 1998-ci ilin avqustunda senzuranın ləğvi Azərbaycanda mətbuatın inkişafına ciddi təkan verdi. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir.

Müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib.

Ulu Öndər tərəfindən mətbuatın inkişafına göstərilən dövlət qayğısı siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bu siyasət nəticəsində Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən ölkə kimi tanınır.

Mətbuat tariximizdə hərb, müharibə mövzusu Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan mətbu orqanlarında "Azərbaycan", "Açıq söz" və "İstiqlal" qəzetlərində daha geniş yer alıb.

1920-ci ilin aprel işğalından sonra Azərbaycan diviziyasının orqanı olan "Qızıl əsgər" qəzeti fəaliyyətə başlayır. 10 ildən çox nəşr edilən bu qəzetin Azərbaycan hərbi mətbuatının inkişafında xüsusi yeri var. 1922-ci ildə hərbi mətbuat nümunələrimizdən biri olan "Savadlı Qırmızı Əsgər" adlı ilk jurnal Bakıda nəşr olundu. Ayda bir dəfə nəşr olunan, hərbi qulluqçular üçün nəzərdə tutulan ictimai-siyasi, ədəbi-elmi məcmuə yeni yaranmış Azərbaycan diviziyasının orqanı kimi fəaliyyət göstərirdi. Jurnalın nəşr olunmasında əsas məqsəd əsgərlərin maariflənməsi, onların döyüş hazırlığı, silaha qulluq qaydaları haqqında və ədəbi-bədii mövzuda yazılar dərc etmək idi. "Qızıl əsgər" adı ilə nəşrini davam etdirən bu mətbu orqanını sonralar general Ələğa Şıxlinskinin təklifiylə "Hərbi Bilik" adlandırdılar. Jurnal hərbi elmi əsaslara və nəzəriyyəyə söykənərək məzmununda və tərtibatında yeniliklər etdi. Ötən əsrin 30-cu illərinin əvvəllərində bütün milli diviziyalar, bölmələr sovet ordusunun tərkibinə keçdiyindən hərbi mətbuat öz fəaliyyətini dayandırdı. Sovet ordusunun hərbi dairələrinin qəzetləri nəşrə başladı.

Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Ordusunun formalaşdığı ilk gündən Qarabağ müharibəsinin ağır döyüşlərini və əməliyyatlarını öz səhifələrində işıqlandıran milli hərbi mətbuatımız yarandı. 1992-ci ilin fevralından nəşrə başlayan "Azərbaycan Ordusu" (əvvəlcə "Xalq Ordusu" adlanırdı) qəzeti, "Hərbi Bilik" jurnalı bu gün ordumuzun ən dəyərli müharibə, hərbi mətbuat salnaməsini yazan mətbu orqanlarıdır.

1993-cü il iyunun 2-də Azərbaycan Ordusunun inkişaf istiqamətlərini, hərbi həyatın özəlliklərini, müharibə həqiqətlərini bütün konkretliyi ilə əks etdirmək, faktları və hadisələri sənədləşdirmək, qoruyub saxlamaq məqsədilə Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının əsası qoyuldu. Onların sayəsində Azərbaycan Ordusunun bu günə kimi keçdiyi şərəfli və uğurlu yoldan əhatəli məlumat əldə etmək mümkündür.

Beləcə, Azərbaycan kütləvi informasiya vasitələri sırasında mühüm yer alan hərbi mətbuatımız ötən dövr ərzində böyük inkişaf yolu keçərək Qarabağ müharibəsinin döyüş salnaməsini yaratdı. Vətən müharibəsində qəzetimizin əməkdaşları üç səyyar informativ qəzet-bülletenlər hazırladılar.

Bu gün "Azərbaycan Ordusu" qəzeti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Müdafiə Nazirliyinin rəhbərliyinin bütün göstərişlərini böyük məsuliyyətlə, dövlətə, dövlətçiliyə böyük sədaqətlə yerinə yetirir.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# "Əkinçi"dən başlayan yol

Azərbaycanda mətbuatın əsası Həsən bəy Zərdabinin çətin tarixi şəraitdə sonsuz səylərinin nəticəsində yaranıb. "Əkinçi" ilə başladığımız bu yolda, sözsüz ki, Zərdabinin də əsas hədəfi bixəbər xalqı məlumatlandırıb zülmətdən aydınlığa çıxarmaq cəhdi olub. Məlum məsələdir ki, xalqın maariflənməsi dövlət orqanlarının işinə əngəl törədə bilərdi. Yaşanan bütün çətinliklərə baxmayaraq, Həsən bəy Zərdabi 2 il də olsa "Əkinçi"nin fəaliyyətini davam etdirərək yeni mətbuat orqanlarının yaranması üçün qığılcım rolunu oynadı.

"Əkinçi" ilə xalqın maariflənməsinə xidmət edən, onun elmi və mədəni tərəqqisinə çalışan Azərbaycan mətbuatının əsası qoyuldu.

Müstəqil olmayan ölkədə yaşamaq nə qədər çətindirsə, onun inkişafı üçün görülən tədbirlər də bir o qədər əhəmiyyətsiz olacaq. Bütün bu əngəllərə baxmayaraq mətbuat bir an belə olsun xalqla əlaqəsini itirmədi. Çətin tarixi vaxtlardan biri də repressiya illəri oldu. "Kommunist", "Bakinski raboçi", "Gənc işçi" qəzetləri, "Komsomol", "Maarif və mədəniyyət" jurnalları və digər mətbu orqanlarında mərkəzin yeritdiyi siyasət təqdir edilirdi. Həmin dövrdə çap olunan yazıların başlıqlarına baxmaq kifayətdir ki, zamanın tələbinə uyğunlaşdırılan Azərbaycan mətbuatının vəziyyəti aydın olsun. İctimai fəalların, jurnalistlərin zorən inzibati tədbirlərə cəlb olunması müsbət nəticə vermirdi. Azərbaycanda böhran yaşanırdı.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Bu böyük hadisə çox mürəkkəb tarixi bir şəraitdə baş verdi. O zaman Azərbaycanla Ermənistan arasındakı münasibətlərdə gərginliklər yaranmışdı. Yüz minlərlə insan ata-baba yurdu olan İrəvandan qovularaq Azərbaycana pənah gətirmişdi. Bu azmış kimi Qarabağ da yavaş-yavaş düşmən əlinə düşürdü. Bütün bunlar acı da olsa mətbuatda işıqlandırılırdı.

"Əkinçi" qəzetindən başlanan yol bu gün uğurla davam etdirilir. Bu gün milli mətbuatımız dövrünün ən gözəl çağlarını yaşayır. Azərbaycan hökuməti mətbuatın inkişafı üçün münbit şərait yaradıb. Mətbuat və söz azadlığı yüksək səviyyədə təmin olunub. Azərbaycan milli mətbuatı tarixi ənənələrini qoruyaraq daim inkişaf edir.

**Hüsniyyə İDRİSOVA**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)**

**Mövzu:** Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır.

***İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.***

**Suallar:**

**1. Qarabağ ən qədim zamanlardan XVIII əsrin ortalarınadək.**

**2. Qarabağ XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək.**

**3. Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır.**

### Qarabağ ən qədim zamanlardan XVIII əsrin ortalarınadək

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx, Tağlar düşərgəsi insanlarının yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay (1 milyon 200 min ildən artıq tarixə malikdir) mədəniyyətindən sonrakı Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir. Bu bölgə Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı ərazini əhatə edir.

Azərbaycan xalqı bu torpaqlarda çox qədim dövrlərdən etibarən öz zəngin mədəniyyətilə yanaşı, dövlətçilik ənənələrini də yaşatmışdır.

Azərbaycanın cənubunda qüdrətli Manna dövləti e. ə. IX-VI əsrlərdə meydana gəlmişdir. Azərbaycanlıların dövlətçilik ənənəsinin tarixi Mannadan başlanır. Manna Assuriya və Urartu ilə mübarizədə müstəqilliyini qorumağa nail olmuş, Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ ərazisi Urartunun işğallarından kənarda qalmışdır. Makedoniyalı İsgəndər Əhəməni dövlətini məğlub etdikdən sonra Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövlətləri yarandı və Qarabağ ərazisinə daxil olan torpaqların bir hissəsi Atropatena dövlətinə tabe idi. Bütün Qarabağ ərazisi isə Albaniya dövlətinin tərkibinə daxil idi.

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin süqutu ta yetirilməsi ilə baş verir. IX-XIII əsrin əvvəlləri, xüsusilə Sacilər-Atabəylər-Şirvanşahlar dövrü bütün Cənubi Qafqazda Azərbaycanın qüdrətinin daha da artdığı bir dövr idi. Sacilər və Atabəylər faktiki olaraq Azərbaycanın tarixi torpaqlarını siyasi cəhətdən birləşdirmişdilər. Keçmiş Albaniya ərazisində yaranmış Xaçın knyazlığı Mehranilər nəslinə mənsub olan Həsən Cəlalın dövründə yüksək inkişaf mərhələsinə çatmışdı. Monqolların birinci yürüşü zamanı zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı Qarabağ da onun hakimiyyəti altında idi. Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə Qarabağ digər Azərbaycan torpaqları kimi Ali monqol xaqanlığının, sonra isə Hülakülər (Elxanilər) dövlətinin tərkibində idi. XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində idi. Azərbaycan Səfəvi dövlətinin yaranması ilə bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı. Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi idi. Qarabağ bəylərbəyliyinin tərkibinə Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil əraziləri daxil idi.

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi. Bu dövrdə Gəncə-Qarabağ torpaqları əvvəlcə Osmanlı imperiyası tərkibində olmuşdur. Digər tərəfdən, sonuncu Səfəvi hökmdarı III Abbası yıxaraq hakimiyyətə gələn Nadir şah Əfşar onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyiliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi ki, bu amil də Qarabağın alban məliklərinin mövqeyini gücləndirdi və onların separatizminə təkan verdi. Nadir şah öldükdən sonra onun yaratmış olduğu nəhəng imperiya müstəqil feodal dövlətlərə parçalandı. Azərbaycan ərazisində 20 xanlıq, 7 sultanlıqdan ibarət feodal dövlət qurumları yarandı. Bu xanlıqlardan biri Kür və Araz çayları arasında böyük əraziyə malik olan Qarabağ xanlığı oldu. Qarabağ xanlığının əsasını Cavanşirlər sülaləsinin Sarıcalı oymağından olan Pənah Əli xan qoydu.

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ qədim Azərbaycan dövlətlərinin tərkibində olduğu kimi, Albaniya, Xilafətdən sonra yaranmış Sacilər, Salarilər, Şəddadilər, Eldəgizlər, Elxanilər (Hülakülər), Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Osmanlılar, sonralar Əfşarlar və Qacarlar kimi türk hakimlərin idarə etdikləri dövlətlərin tərkibində olmuşdur.

### Qarabağ XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Rusiya ciddi "Qafqaz siyasəti" yeridirdi. I Pyotrun Azərbaycan neftinə və geostrateji mövqeyinə olan marağı Osmanlı imperiyası ilə münaqişəyə gətirib çıxardı. XVIII əsrdən Qafqazı, o cümlədən Cənubi Qafqazı ələ keçirmək üçün geniş hərbi fəaliyyətə başlayan Rusiya XIX əsrin birinci yarısında buna nail oldu.

1805-ci ildə Qarabağ xanı ilə rus imperatoru arasında "Kürəkçay" traktatı imzalandı. 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan bu traktat ilə Qarabağ xanlığı Rusiya himayəsinə qəbul edildi. "Kürəkçay"ın (1805-i il) ardınca Rusiya ilə İran arasında bağlanan "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələrindən sonra Qarabağda erməniləşdirmə prosesi başlandı.

XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı ələ keçirmək üçün Osmanlı dövləti və İranla apardığı müharibə nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü. 1822-ci ildə Qarabağ xanlığı ləğv olunaraq yerinə eyni adlı - Qarabağ əyaləti yarandı.

Beləliklə, Çar Rusiyası ermənilərin Şimali Azərbaycana, o cümlədən Qarabağa kütləvi surətdə köçüb gəlməsinə və burada onların inzibati-siyasi, sosial-iqtisadi və mədəni inkişafına geniş imkanlar yaratdı.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan tarixində yeni dövr başlandı. 1918-1920-ci illərdə Qarabağda soyqırım törədən erməni daşnakları Qarabağın qəzalarında kəndləri məhv edərək minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular. Nuru Paşanın rəhbərliyi ilə Türk-İslam ordusu Xosrov bəy Sultanovun başçılıq etdiyi müqavimət hərəkatı ilə birgə 1920-ci il iyunun əvvəllərində Şuşanı XI ordunun silahlı dəstələrindən təmizləyə bilsə də, Dağlıq Qarabağa rus və erməni quldurlarına kömək məqsədilə gətirilmiş birləşmiş ordu hissələri iyunun 15-də Şuşada sovet hökumətini bərpa etdi. 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi köçürüldü. XX əsrdə Rusiyada çarizmin süqutu və sovet imperiyasının yaranması ilə meydana çıxan əlverişli şəraitdə ermənilər inzibati ərazi məsələsini qaldırdılar və Dağlıq Qarabağ Muxtar Vilayəti kimi nə tarixi, nə də sosial-iqtisadi əsası olmayan bir qurum yaratdılar (7 iyul 1923-cü il).

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə "aran" və "dağlıq" hissələrə bölünmüş və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdir.

### Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır

Sovetlər dövründə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün DQMV-də gizli işlər aparan ermənilər və ermənipərəstlər "Türksüz Ermənistan" yaratmaq ideyası ilə etnik təmizləmə aparmaq məqsədilə dəhşətli faciələr törətmişlər. 1948-1953-cü illərdə minlərlə azərbaycanlı ailəsinin öz ata-baba yurdları Qərbi Azərbaycandan (indiki Ermənistan ərazisindən) deportasiya edilməsi, yaşayış şəraitinə uyğun gəlməyən ərazilərdə yerləşdirilməsi çoxunun məhvinə səbəb olmuşdu.

Sovetlər dövründə ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün gizli işlər apardığı dövrdə (1960-1970-ci illərdə) mühüm dövlət vəzifələrində işləyən ümummilli lider Heydər Əliyev bunun qarşısının alınması üçün bir sıra tədbirlərin görülməsinə nail oldu. Azərbaycan Kommunist Partiyası (KP) Mərkəzi Komitəsinin (MK) birinci katibi seçildikdən sonra ümummilli lider Heydər Əliyev erməni separatçılarının mənfur niyyətlərinin qarşısını almaq məqsədilə DQMV-nin iqtisadi inkişafı və əhalisinin sosial şəraitini yaxşılaşdırmaq üçün müəyyən tədbirlər həyata keçirərək onlara bəhanə yeri qoymadı. Bu da erməni ekstremistlərinin gizli planlarının və niyyətlərinin puça çıxmasına səbəb oldu.

Beləliklə, 1988-ci ildə erməni ideoloqları "dənizdən-dənizə böyük Ermənistan" uydurmasını yenidən ortaya atmaqla Dağlıq Qarabağda Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürüldü. Dünya ölkələrindəki erməni lobbisinin, dini mərkəzlərinin və bəzi iri dövlətlərin irticaçı qüvvələrinin maddi və mənəvi dəstəyi ilə Ermənistan adlandırılan qədim oğuz-türk yurdu olan Qərbi Azərbaycanda azərbaycanlılara məxsus kəndlərin və qəsəbələrin dağıdılması prosesi başlandı, yüzlərlə günahsız azərbaycanlı öldürüldü, 10 minlərlə soydaşımız öz tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldu. Azərbaycan məcburən müharibəyə cəlb edildi. Ermənistanın hərbi müdaxiləsi ilə respublika ərazisinin 20 faizi - Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Rusiya Federasiyasının hərtərəfli yardımı ilə Ermənistan hərbi qüvvələri tərəfindən işğal edildi.

12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olunduqdan sonra da Ermənistan mənfur xislətindən əl çəkməyərək Azərbaycan Respublikasına qarşı ərazi iddialarını davam etdirmişdir.

Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunu bir daha sübut etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasında "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına cavab verib: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Dövlət başçısı 2020-ci ilin sentyabrında BMT-nin tribunasından Ermənistanın faşist siyasətini bütün dünyaya, BMT-yə, Minsk qrupuna çatdırdı. Müharibə hazırlığı aparan Ermənistanın durdurulması üçün addımlar atılmasını, Azərbaycana qarşı onun mövqeyindən əl çəkməsini söylədi. Lakin dünya birliyi, beynəlxalq təşkilatlar, aidiyyəti. Nəticədə, Azərbaycan xalqı 30 illik yurd nisgilindən sonra, nəhayət ki, işğal faktına son qoyaraq tarixi zəfərə imza atdı. Azərbaycan cəmi 44 gün ərzində BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalan qətnamələrinin icrasına nail oldu. Müzəffər Ordumuzun 2020-ci ilin sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. Haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Tarix yazan oğullar

# "Anamın duaları məni qoruyur"

*30 il blokada şəraitində olan Naxçıvanın da Vətən müharibəsində şəhidi və qazisi oldu. Vətəni Vətən edən də onun mərd oğulları, şəhid qanıyla yoğrulmuş torpağıdır.*



44 günlük Vətən müharibəsində hər zaman ön sıralarda döyüşən qəhrəmanlardan biri də şəhid Xansu Qurbanovdur. Ailəsini ziyarət etdiyimiz Xansu Elsevər oğlu Qurbanov 2000-ci il sentyabrın 23-də Babək rayonunun Cəhri kəndində anadan olub. 2018-ci ildə orta məktəbi bitirdikdən sonra "N" hərbi hissəsində xidmət edib. Hərbi xidmətini bitirsə də, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yaşayan Xansu sənədlərini hazırlayıb hərbi hissəyə təqdim edir və Naxçıvanda Xüsusi Təyinatlıların dəstəsində kəşfiyyatçı olaraq təlimlərə başlayır.

Qorxmazlığı, çevikliyi və dəqiqliyi ilə seçilən Xansu Vətən müharibəsi başlayanda müharibəyə yollanan ilk könüllülər dəstəsində olub.

Cəbhə bölgəsinə yola düşməzdən əvvəl bəzi əşyalarını götürmək və ailəsi ilə görüşmək üçün iki günlüyə evlərinə gəlib. Anası Yəmən xanımın dili ilə desək, sanki anasına gedərkən öz vəsiyyətini edib. "Ana, mən gedirəm. Hər şey ola bilər. Şəhid olsam da, sən ağlama. Bil ki, ağlasan, qol-qanadımı sındırıb tabuta qoymuş olarsan. Sevin ki, Qarabağımızı azad etməyə gedirəm".

Xansunun atasız bacılarına və anasına necə sahib çıxmasından söz açan Yəmən xanım oğlunun Vətənə xidməti dövründən də qürurla danışdı. Zəhmətkeş, ailəcanlı və dostcanlı olan Xansunun döyüşlərdə göstərdiyi şücaəti, qorxmazlığı, çevikliyi onun döyüş yoldaşları tərəfindən anası Yəmən xanıma minnətdarlıqla danışılıb.

Söhbət zamanı bəzən qürurlanan, bəzən də gözləri dolan ana oğul itkisinə tək təsəllini onun Qarabağın düşməndən azad edilməsində qəhrəmancasına döyüşməsində və hər kəsə nəsib olmayan şəhidlik zirvəsinə ucalmasında tapır.

Müharibədə riskdən çəkinməyən Xansunun etdiklərini görən yoldaşları ona hər dəfə bu qədər özünü təhlükəyə atmamasını söyləsələr də - "Narahat olmayın. Anamın duaları məni qoruyur", - deyərmiş şəhidimiz. Bu səbəbdən də yoldaşları onu ÖLÜMSÜZ adlandırıblar.

Xansunun 43 günlük döyüş yolu Cəbrayıldan başlayaraq Şuşa şəhərində sona çatır. Şuşa ətrafında gedən döyüşlərdə qolundan yaralansa da, yarası sarındıqdan sonra israrla döyüşə davam edən Xansu Qurbanov Şuşa qalasının qapılarından keçən ilk döyüşçülərdən olub.

Xansuya bacısına Xarıbülbül çiçəyini təqdim etmək nəsib olmur. Qələbəyə bir neçə saat qalmış şəhidlik zirvəsinə ucalır.

Xansu Qurbanov Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Məkanın cənnət olsun, əziz qardaşımız, sənə və səni yetişdirən anaya bir ömür borcluyuq.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Muxtar Respublikası**

# "Vətən müharibəsinin iştirakçısı olduğum üçün sevincliyəm"

Tarix boyu ermənilər çirkin niyyətlərindən əl çəkməyərək xalqımızın başına olmazın faciələr gətirib, vəhşiliklər törədiblər. 2016-cı ilin Aprel döyüşlərində, eləcə də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində gedən döyüşlərdə olduğu kimi, bədnam qonşularımız 2020-ci il sentyabrın 27-də yenə də öz xislətindən əl çəkməyərək cəbhəboyu zonada genişmiqyaslı təxribatlar törətməyə cəhd göstərdilər. Müasir silah-sursat və texnikaya, yüksək döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığa malik ordumuz bu təxribatın qarşısını qətiyyətlə aldı. Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz əks-hücum əməliyyatına başladı. Düşmənin illər uzunu qurub yaratdığı "keçilməz sədlər" qısa zaman ərzində cəsur Azərbaycan əsgəri tərəfindən darmadağın edildi. Cəmi 44 gün davam edən müharibənin sonunda 28 il düşmən işğalı altında olan tarixi torpaqlarımız öz müstəqilliyinə qovuşdu. Uğurlu əks-hücum əməliyyatlarında qəhrəman oğullarımız doğma Qarabağımızın azadlığı naminə öz canlarından, qanlarından keçərək xalqımıza qələbə sevincini yaşatdılar. Düşmənə və onun havadarlarına, o cümlədən bütün dünyaya bir daha Azərbaycan xalqının birliyini, Azərbaycan Ordusunun güclü və qüdrətli olduğunu sübut etdilər.



44 günlük Vətən müharibəsində qələbənin qazanılmasında payı olan igidlərimizdən biri də qazimiz Kənan Kazımovdur. O, 1996-cı ildə Sumqayıt şəhərində anadan olub. Daha sonra ailəsi ilə birlikdə Rusiya Federasiyasına yollanan Kənan orta təhsilini başa vurduqdan sonra orada İqtisadiyyat və Hüquq İnstitutuna qəbul olub. Lakin müqəddəs övladlıq borcunu ödəmək, Vətən torpaqlarının keşiyini çəkmək məqsədi ilə ali təhsilini yarımçıq qoyaraq Vətənə geri dönüb. Əsgəri xidmət dövründə həm əsgər yoldaşlarının, həm də komandir heyətinin rəğbətini qazanıb. "Uzun müddət ölkəmizdən kənarda yaşamağımıza baxmayaraq, valideynlərim bizi daima Vətənə, millətinə bağlı övlad kimi tərbiyə ediblər. Bununla yanaşı, onlar daima bizə bədnam qonşularımızın xalqımızın başına açdığı faciələrdən, müsibətlərdən, torpaqlarımızı talan edərək yerlə-yeksan etmələrindən danışıblar. Valideynlərimin söhbətləri məndə daima düşmənə qarşı nifrət hissi oyadırdı". Kənan Kazımov Vətən müharibəsinin ilk günündən torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. "Sentyabrın 27-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər İdarəsi tərəfindən yenidən ordu sıralarına çağırıldım. Müəyyən təlimlər keçdikdən sonra "N" hərbi hissəsinin tərkibində torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdim. Yurdumuzun işğaldan azad olunması hər kəs kimi, məni də qürurlandırır, qələbəyə olan inam hissimi daha da artırırdı. Gərgin döyüşlər gedirdi. Ermənilərdən həm silah-sursat, həm də müasir texnika cəhətdən qat-qat üstün idik. Döyüş meydanında düşmənə göz açmağa imkan vermirdik. Canlı qüvvə sarıdan ciddi itkilərə məruz qalan düşmən ordumuzun gücü qarşısında tab gətirməyərək silah-sursatlarını ataraq geri çəkilməyə başladı. Onlar Azərbaycan əsgərinin silahının hədəfindən yayınmaq üçün çıxış yolunu yalnız qaçmaqda görürdülər".

Söhbət əsnasında Kənanın həm yaralıların, həm də şəhidlərimizin döyüş meydanından çıxarılmasında iştirak etdiyini də öyrəndik. Kənan müvafiq döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində sol gicgah nahiyəsindən qəlpə yarası alıb. Döyüş meydanından təxliyə olunaraq hərbi hospitala göndərilib. Daha sonra qazimiz "YAŞAT" Fondunun dəstəyi ilə müalicəsini davam etdirmək məqsədilə Türkiyə Respublikasına göndərilib. Qardaş ölkədə müalicə olunaraq geri dönən qazimiz Vətən müharibəsinin iştirakçısı olduğu üçün sevinc hissi keçirdiyini bildirdi.

Bu gün Kənan kimi 44 günlük Vətən müharibəsində öz igidliyi, qəhrəmanlığı, qələbə ruhu və vətənpərvərlik hissi ilə tarix yazaraq dastana dönən oğullarımızın şücaəti ilə hər bir azərbaycanlı haqlı olaraq qürur duyur. Yazılan bu Qələbə dastanı xalqımızın yaddaşında əbədi olaraq qəhrəmanlığı salnaməsi kimi yaşayacaqdır.

**Leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə koronavirusa qarşı vaksinasiya 63 milyon dozanı ötüb




Türkiyədə yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı tətbiq olunan kütləvi peyvəndləmənin sürətləndirilməsi tədbirləri virusun yayım dinamikasına əks təsir göstərib.

İyulun 18-də Türkiyə vaxtı ilə saat 19:45-ə (Bakı vaxtı ilə saat 20:45) qədər ölkə üzrə COVID-19 infeksiyasına qarşı tətbiq olunan peyvəndin sayı 63 milyon 310 min 307 dozaya çatıb. Bu həftə içərisində ümumilikdə 5 milyon 557 min 815 doza peyvənd vurulub.

İkinci doza peyvənd sayının 20 milyon 735 min 416 çatması infeksiyaya qarşı vaksinlə kütləvi mübarizədə böyük ümidlər yaradıb.

Qeyd edək ki, Türkiyədə artıq 3-cü doza peyvəndləmə də tətbiq olunur.

### İranla nüvə danışıqları yeni hökumətin fəaliyyətə başlamasından sonra mümkün ola bilər



İranla bağlanmış nüvə sazişini xilas etmək üçün Vyana danışıqları İranda yeni hökumət formalaşdıqdan sonra mümkün ola bilər.

Avstriya Teleradiosu (ORF) bu məlumatı İran mənbələrinə istinadən yayıb. Qeyd edilib ki, danışıqlarda İran nümayəndə heyətinə rəhbərlik edən xarici işlər nazirinin müavini Abbas Əraqçi öz sosial şəbəkə hesabında da bu mövzuda paylaşım edib. Nazir müavininə görə, danışıqlar avqust ayında yeni hökumətin fəaliyyətə başlamasını "gözləməlidir".

Qeyd edək ki, Vyanada keçirilən nüvə danışıqlarının 6-cı raundu iyunun 21-də başa çatıb və həmin vaxt növbəti görüşün vaxtı barədə heç bir açıqlama verilməyib.

İranın yeni seçilmiş dövlət başçısı İbrahim Rəisi avqustun 5-də vəzifə səlahiyyətlərinə başladıqdan sonra danışıqların növbəti mərhələsi barədə hansısa fikir söyləmək olar.

Vyanada keçirilən son nüvə danışıqlarında İran və 2015-ci il sazişini imzalayan dövlətlərin ABŞ istisna olmaqla hamısı (Almaniya, Böyük Britaniya, Çin, Fransa və Rusiya) iştirak ediblər. ABŞ Prezidenti Co Bayden prinsip etibarilə İranla birbaşa danışıqlara tərəfdar olduğunu elan etsə də, bunun üçün İranın 2015-ci il sazişinə tam şəkildə əməl etməsi şərtini irəli sürüb. İran isə bunun üçün ABŞ-ın İrana qarşı sanksiyalarını aradan qaldırmalı olduğunu bildirib. Qarşılıqlı ziddiyyətlərə görə Vyana danışıqları ABŞ-ın birbaşa iştirakı olmadan keçirilib və iyun ayında yekun razılaşma əldə edilmədən yarımçıq saxlanılıb.

### Yaponiyada torpaq sürüşməsi nəticəsində həlak olanların sayı 15 nəfərə çatıb

İyulun əvvəlində Yaponiyanın Şizuoka prefekturasının Atami şəhərində baş verən torpaq sürüşməsi nəticəsində həyatını itirənlərin sayı 15 nəfərə çatıb.



İyulun 3-də səhər saat 10 radələrində baş verən torpaq sürüşməsindən sonra 20 nəfərin itkin düşdüyü elan edilib. Hazırda təbii fəlakət zonasında axtarış-xilasetmə işləri davam etdirilir.

Qeyd edək ki, fəlakət nəticəsində zərər çəkən rayonda təqribən 130 ev dağılıb, hələ də 14 nəfərin yeri müəyyən edilməyib. Təqribən 500 nəfər müvəqqəti təxliyə mərkəzlərinə yerləşdirilib.

Son məlumatlara görə, bazar günü xilasedicilər daha bir nəfərin cəsədini aşkar ediblər, lakin onun torpaq sürüşməsi nəticəsində həlak olduğu dəqiqləşdirilməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətən müharibəsi: Zəfərdən sonra düşüncələr

XX əsrin sonlarında Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Xarici havadarlarının maddi, mənəvi, hərbi yardımlarından kifayət qədər yüksək səviyyədə bəhrələnən Ermənistan torpaqlarımızın 20 faizini işğal etdi.

İşğalçı dövlət olan Ermənistan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirmədi, ATƏT-in Minsk Qrupuna daxil olan dövlətlər də ona ya təsir göstərmək istəmədilər, ya da təsir edə bilmədilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasəti münaqişənin sülh yolu ilə həlli istiqamətində danışıqların davam etdirilməsinə yönəldilirdi. Lakin Ermənistan mövcud status-kvonu saxlamaq niyyəti ilə danışıqlardan yayınırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə bildirirdi ki, Ermənistan danışıqlardan yayınarsa, münaqişəni güc yolu ilə Azərbaycan Ordusu həll edəcəkdir. Bu, dövlətə, dövlətçiliyə sədaqət kimi ordunun qüdrətinə də inam bəyanatı idi. İşğalçı dövlət bu ciddi bəyanatdan nəticə çıxarmadı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda ikinci erməni dövlətinin yaranmayacağı qətiyyəti də düşməni niyyətindən çəkindirmirdi...

Ermənistan işğaldan çəkinmədiyinə görə müharibə zəruriləşirdi.

Ermənistan silahlı birləşmələri 2016-cı ilin aprelində Azərbaycanın işğal edilmiş ərazilərindən, 2020-ci ilin iyulunda Tovuz rayonu ərazisindən dövlət sərhədlərimizi pozaraq irimiqyaslı təxribatlar törətmək, yeni ərazilər işğal etmək niyyəti ilə hücuma keçdi. Azərbaycanın ordu hissələri hər iki hücumun qarşısını qətiyyətlə aldı. Mahiyyət etibarilə hər iki döyüş torpaqlarımızı işğaldan azad edəcək döyüşlərin ilki, başlanğıcı idi və müəyyən mənada, şəxsi heyətin mənəvi-psixoloji hazırlığını müharibə şəraitinə (və müharibəyə!) münasib səviyyədə formalaşdırdı. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini Zəfərlə tamamlamağa həm döyüş hazırlığı ilə, həm də mənəvi-psixoloji hazırlığı ilə hazır idi.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunan paradda demişdir: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq". Növbəti hərbi parada - 2020-ci il dekabrın 10-da Zəfər bayraqları hərbi parada gətirildi.

İşğalçı dövlət həmişə daha çox ərazi zəbt etməyə həvəslənir. Bu niyyətini gerçəkləşdirmək üçün təxribatlarını davam etdirir. 2020-ci il sentyabrın 27-də müxtəlif istiqamətlərdən ərazilərimizə hücumun da məqsədi bu idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam etdi - Azərbaycan əsgərinin torpaqlarımızı işğaldan azad edən döyüşləri ermənilərin illərlə qurduğu, yaratdığı, möhkəmləndirdiyi müdafiə sədlərini darmadağın etdi, ilk mövqe qələbələri qazanıldı. Bu, həm ordunun Sərkərdəyə inamının, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, həm də vətənsevərliyinin nəticəsiydi.

Düşmən hücuma keçəndə arsenalında olan silahları, onun işğalçılıq siyasətinə ya gizlin, ya aşkar havadarlıq edənlərin verdiyi ümidləri nəzərə almışdı, ancaq Azərbaycan Ordusunun gücünü, qüdrətini, Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu nəzərə almamışdı. Ona görə də Vətən müharibəsində güman etmədiyi səviyyədə ağır məğlubiyyətə uğradı. Onu bu vəziyyətə salan amillərdən biri də Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığı, vətənsevərliyi, dövlətə, dövlətçiliyə sədaqəti idi...

Ali Baş Komandanın döyüş əmri ilə əks-hücum əməliyyatı başlayan, Vətən müharibəsi kimi davam edən bu müharibə xalqın müharibəsi oldu. Neçə ailədən ata oğullarıyla bir yerdə döyüşürdü, onlarla qardaş eyni hərbi hissənin döyüşçüləri idi. Xankəndi istiqamətində gedən döyüşlərdə eyni gündə, təxminən eyni anlarda şəhid olan İman və Bəhram Məmmədzadə qardaşlarının şəhidliyi bir gerçəkliyin ifadəsi kimi yaşanıldı.

Xalq döyüşən orduya böyük mənəvi dəstək göstərməklə kifayətlənmədi. Əli silah tutanlar, ürəyində təpər, dizində taqət olanlar Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət edirdilər. Dövlət başçısının müvafiq sərəncamı ilə qismən səfərbərlik elan edildiyindən onların hamısı döyüşlərə cəlb olunmadı...

Vətən müharibəsi ruhun müharibəsi idi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində bildirdi: "Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!".

Azərbaycan Ordusu düşmənin işğal etdiyi ərazilərdə yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini darmadağın etdi. Düşmən də, havadarları da gördü ki, Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu onun təmas xətti boyunca yaratdığı müdafiə zolağının möhkəmliyindən, hərbi potensialından dəfələrlə güclüdür. Xalq Azərbaycan Prezidentinin "Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz..." bəyanatını Vətən müharibəsinin sonunda qazanacağımız qələbənin zəmanəti kimi dinlədi, bu zəmanətin qətiyyətiylə qürurlandı...

Azərbaycan Ordusu döyüşə-döyüşə irəliləyir, mühüm strateji yüksəklikləri, yaşayış məntəqələrini düşməndən azad edirdi. Xalq inanırdı ki, bu döyüşlər işğalı sonlandıracaq...

Zəfərdən sonra bir erməni döyüşçüsünün etirafı da Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun hansı səviyyədə yüksək olduğunun təsdiqidir: "400 nəfər görürdük. Atəş açılırdı, onun ardınca daha bir qrup gəlirdi. Atəş açılırdı, ardınca ikiqat böyük qrup dalğa halında gəlirdilər. Əlbəttə ki, belə bir qüvvəyə tab gətirmək mümkün deyil". Erməni döyüşçüsünün bu etirafı həm də Zəfərin necə qazanıldığının göstəricisidir....

Vətən müharibəsində Azərbaycan Ordusu ilk böyük qələbəsini Madagizdə (ölkə başçısının təklifi ilə bu ad dəyişdiriləərək Suqovuşan adlandırıldı) qazandı. Bu qələbə ordunun da, xalqın da inamını kükrətdi. Xalq inanırdı ki, ordu sərkərdənin döyüş əmrini Zəfərlə tamamlayacaq. Döyüşçülər qəhrəman olmaq üçün vuruşmurdu, hər biri qəhrəmanlıqla vuruşurdu.

Vətən müharibəsində yaddaqalan, tarixləşən çox anlar yaşanılıb. Hər biri müharibə tariximizdir. Böyük Vətən müharibəsindən qələbədən 75 il keçsə də, o illərin döyüşləri haqqında indi də danışılır, o illərin qəhrəmanlığı indi də xatırlanır. Vətən müharibəsi də belə olacaq. Həmişə ehtiramla anılacaq, qəhrəmanlıqlar, qəhrəmanlar qürurla xatırlanacaqlar.

Şuşa istiqamətində gedən döyüşlərdə qəflətən Elvin qardaşı İlkini görür. Bu təsadüfi görüş onların da, digər döyüşçülərin də döyüş əzmini, qələbə ruhunu yüksəldir. Hamısı döyüşə atılmaq istəyir. Az sonra döyüş əmri verilir. Bu döyüş haqqında bu mediasında dərc edilən bir məqalə diqqəti çəkir: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar". Bu fikirlər Zəfərin necə qazanıldığını ifadə edir...

Xocavənd rayonunda yüksəkliklərdən birinin azad edilməsi əmri verilmişdi. Düşmən yüksəklikdəydi, döyüşçülərimiz hücumla yüksəkliyə çatmalıydılar. Düşmən mövqe üstünlüyünə malik idi. Əmri yerinə yetirmək üçün komandirin əmri ilə düşmənə qumbara ata-ata irəliləyiblər. Atılan qumbaralar düşmənin diqqətini yayındırıb, bir qədər çaşqınlıq da yaradıb. Belə məqamdan istifadə edən döyüşçülərimiz bir qədər irəliləməyə imkan qazanıb. Sonra yenə qumbaralar atıblar, yenə irəliləyiblər. Qumbara atanda da, irəliləyəndə də düşmənin pərakəndə atışından daldalanmağa məcbur olublar. Düşmən qumbara qəlpələrindən daldalandığı, qorunduğu müddətdə irəliləyib, yenidən qumbara atıb, yenidən irəliləyiblər. Düşmənlə araları bir güllə məsafəsi qədər qalanda atıcı silahlarla döyüşüblər. Müdafiə oluna bilməyən düşmən qaçıb. Əmr yerinə yetirilib.

Soltanlı kəndi uğrunda döyüş gedirmiş. Düşmən müdafiə olunurmuş. Namiq, Vətən, Tural yaralananları çiyinlərinə alıb döyüşün içindən çıxardanda aralarına minaatan mərmisi düşüb. Qəlpə yaraları alsalar da, yaralıları təhlükəsiz yerə çıxarda biliblər. Döyüşçülərimiz hücumu qətiyyətlə davam etdiriblər. Düşmən çarəsizliklə atışa-atışa geri çəkilib. Soltanlı işğaldan azad edilib.

Şuşa işğaldan azad ediləndə şəhid olan döyüşçü son damla qanıyla qayanın sinəsinə "Qarabağ Azərbaycandır" yazıb.

Bu kimi faktlar Vətən müharibəsinin tarixidir, Zəfərə aparan yol bu kimi hadisələrdən keçib. Azərbaycan Ordusunun hər döyüşü Zəfərin tarixidir, Zəfərin tarixi isə Vətən müharibəsində qazanılan qələbə yolunun tarixidir. Bu tarixi Müzəffər Sərkərdənin qüdrəti ilə Azərbaycan Ordusu yazdı.

Azərbaycan Ordusu noyabrın 8-də Şuşanı işğaldan azad etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə həmin gün Zəfər günü kimi qeyd ediləcək.

Əksər xarici ölkələrin hərbi ekspertləri Vətən müharibəsinin tarixini diqqətlə öyrənməyi, Azərbaycan Ordusunun müharibəaparma qüdrətini mənimsəməyi tövsiyə edir. Bu, Vətən müharibəsinə verilən yüksək dəyərdir...

**Vaqif QURBANOV**
**ehtiyatda olan polkovnik-leytenant**

# İdman

## Bədii gimnastlarımız İsraildə keçirilmiş Qran-Pri yarışlarında beş medal qazanıblar



Olimpiya Oyunlarından əvvəl bədii gimnastlarımızın sonuncu sınağı İsraildə təşkil edilmiş Qran-Pri yarışları olub.

AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, turnirdə iştirak etmək üçün Zöhrə Ağamirova, Arzu Cəlilova, eləcə də qrup hərəkətləri komandasının heyətində Zeynəb Hümmətova, Ləman Əlimuradova, Darya Sorokina, Yelizaveta Luzan və Nərminə Səmədova Tel-Əviv şəhərinə yollanıblar.

Qızlarımız komandamızın hesabına 5 bürünc medal yazdırıblar. Qrup hərəkətləri komandamız yarışda "het-trik" edib. Onlar yarışın birinci günündə çoxnövçülükdə, final günü isə həm 5 top, həm də 3 halqa və 2 cüt gürzlərlə çıxışlarına görə bürünc medal qazanıblar.

Daha iki bürüncü isə komandamızın aktivinə A.Cəlilova yazdırıb. Gənclərin dünya çempionatının ikiqat mükafatçısı olan A.Cəlilova Qran-Pri ilə birlikdə keçirilmiş beynəlxalq turnirdə top və gürzlərlə çıxışına görə dubl edib. Lentlə hərəkətlərdə finala adlamış Olimpiya Oyunlarına lisenziya sahibi Z.Ağamirova isə həlledici mərhələdə 5-ci yerdə qərarlaşıb.

## "Qarabağ" klubu UEFA-ya iştirak ərizəsini təqdim edib



Ağdamın "Qarabağ" futbol klubu UEFA Avropa Konfrans Liqasının ikinci təsnifat mərhələsində İsrailin "Aşdod" komandası ilə oyunlar üçün iştirak ərizəsini UEFA-ya göndərib.

AZƏRTAC klubun saytına istinadla xəbər verir ki, region təmsilçisinin açıqladığı siyahıda 22 futbolçuya yer verilib. Onların 2-i qapıçı, 7-si müdafiəçi, 8-i yarımmüdafiəçi, 6-sı isə hücumçudur.

İştirak ərizəsində qapıçılardan Şahruddin Məhəmmədəliyev, Emil Balayev, müdafiəçilərdən Rahil Məmmədov, Maksim Medvedev, Marko Veşoviç, Abbas Hüseynov, Elvin Cəfərquliyev, Bədavi Hüseynov, Kevin Medina, yarımmüdafiəçilərdən Qara Qarayev, Patrik Andrade, Uroş Matiç, Abdullah Zubir, Xayme Romero, İsmayıl İbrahimli, Filip Ozobiç, Kadi Borqes, hücumçulardan Ramil Şeydayev, Ayhan Arazlı, Musa Qurbanlı, Zamiq Əliyev, Toral Bayramov və Nihad Quliyevin adı yer alıb.

Qeyd edək ki, "Qarabağ"la "Aşdod" arasında ilk matç iyulun 22-si Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək. Görüş 20:00-da başlayacaq. Cavab oyunu isə iyulun 29-da İsraildə olacaq.

## Gənc cüdoçularımız Avropa kuboku turnirini 4 medalla başa vurublar



Praqada gənc cüdoçular arasında keçirilən Avropa kuboku uğrunda turnirdə Azərbaycan komandası 4 medal qazanıb.

AZƏRTAC xəbər verir ki, turnirin ikinci günündə daha bir cüdoçumuz medal əldə edib. Belə ki, qızlar arasında mübarizə aparan Könül Əliyeva (48 kq) yalnız finalda məğlub olaraq ikinci yeri tutub.

Bundan əvvəl komandamızın üzvləri Qasım Vəlizadə (60 kq), Rəşad Quluzadə (66 kq) oğlanların yarışında gümüş medal qazanıblar. Qızlar arasında keçirilən turnirdə isə Nərmin Əmirli (+78 kq) bürünc medala layiq görülüb.

Avropa kuboku yarışında 33 ölkədən 383 idmançı mübarizə aparıb. Azərbaycan turnirdə 11 cüdoçu ilə təmsil olunub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 360
Nüsxə 3959